Azərbaycanın bir çox heykəltəraşları memorial incəsənəti sahəsində çalışaraq müsbət nailiyyətlər əldə etməyə müvəffəq olmuşlar. Heykəltəraşlar öz əsərlərini elm və mədəniyyət işçilərinə, tarixi şəxsiyyətlərə, qəhrəmanlara və konkret insanların obrazlarının əks etdirilməsinə həsr etmişlər.

Azərbaycanda memorial abidələrin inkişafı tədqiq olunmamış, ancaq müəyyən heykəltəraşın yaradıcılığına həsr olunmuş monoqrafiyada azacıq işıqlandırılmışdır.

Memorial heykəltəraşlar dünyasını dəyişmiş insanların obrazlarını əks etdirməklə yanaşı həmin dövrün mədəniyyətini, incəsənətini və insanların zövqlərini də göstərir.

Azərbaycanda memorial abidələrin inkişafını bir məqalədə işıqlandırmaq mümkün deyil.

Bizim dövrümüzdə memorial incəsənət inkişaf mərhələsindədir. Onun əsas prinsipləri dəqiqləşdirilir. Bununla yanaşı əgər dünya mədəniyyətinə nəzər salsaq memorial incəsənətin sonsuz hüdudlara malik olduğunun şahidi olarıq. Burada biz möhtəşəm Misir piramidaları ilə yanaşı sakit-lirik yunan stellaları, zəngin relyeflərlə bəzədilmiş Roma sarkofaqlarını, fayum portretlərini, ağ mərmər parıltısı ilə işıq saçan Tac–Mahal, Mikelancelonun yaratdığı Mediçi kapellasını, Berninin poetik heykəllərini və s. görə bilərik. Adları çəkilən bütün bu sənət əsərləri memorial janrın tarixi əhəmiyyətini sübut edir. Memorial heykəllər əsasən yarandığı dövrün incəsənətinin ən önəmli xüsusiyyətlərini özündə cəm edir.

Qəbirüstü abidələrin formasından asılı olmayaraq, o monumental incəsənətinə aid edilir.

Şəhər meydanlarında ucaldılan abidələrdən fərqli olaraq qəbirüstü abidə nisbətən yaxın məsafədən baxılmaq üçün nəzərdə tutulur. Ümumiyyətlə qəbirüstü abidə lirikliyi və intimliliyi ilə fərqlənir.

Dünyasını dəyişmiş insanların müsbət keyfiyyətlərini yada salsaq, həyatın mənasını anlamaqda qəbirüstü abidələr tərbiyəvi əhəmiyyətə malikdirlər.

Aydındır ki, qəbirüstü abidələr də çox qədim tarixə malikdirlər. İncəsənətin bu növü memarlıqla sıx əlaqədardır. Dini baxış və milli ənənələrin qəbirüstü abidələrə təsiri böyükdür.



# Azərbaycan memorial heykəltəraşlığı

Azərbaycanda qəbirüstü abidələrin son 60 ildə inkişafına nəzər salmadan öncə bu dövrdə heykəltəraşlığın hansı səviyyədə olmasını bir daha yada salmaq yerinə düşərdi. Hələ XIX əsrin əvvəllərindən Azərbaycanda rəssamlıq məktəbi fəaliyyətə başlayır. Bu məktəbdə dövrün tanınmış rəssam və heykəltəraşları dərs verirdilər. Artıq o dövrdə Azərbaycanda professional rəssamlar formalaşmağa başlayır. Onların bir qismi ali rəssamlıq savadı almaq üçün Moskva, Leninqrad, Kiyev, Xarkov, Tiflis və s. şəhərlərə üz tuturdular. Qeyd etmək lazımdır ki, o dövrdə Bakı rəssamlıq məktəbi yüksək səviyyəli kadrlar hazırlayırdı. Ona görə də buranın məzunlarının əksəriyyəti digər şəhərlərin ali rəssamlıq məktəblərinə çətinlik çəkmədən qəbul olunurdular. Təbii olaraq ali rəssamlıq məktəblərində təhsil alan tələbələr həmin xalqın incəsənət və mədəniyyətinə də yiyələnirdilər.

Sovet dövründən başlayaraq Azərbaycanda qəbirüstü abidələrdə portret janrına üstünlük verilir. Bu zaman meydanlarda qrup şəklində ucaldılmış memorial abidələrə də rast gəlmək mümkün idi.

Qəbirüstü abidələrdə mərhumun müəyyən sənətə mənsubluğunun qeyd olunması qədim dövrlərdən gəlir. Qədim abidələrdə ölən insanın peşəsinin əsas atributu daş üzərində həkk olunurdu.

1950-ci illərdən başlayaraq Azərbaycanda qəbirüstü abidələrdə portret janrına yer verilməsinə təsadüf edilir. Artıq bu dövrdə Azərbaycanda professional heykəltəraşlar yetişmişdi. Onlar portret janrına öz yaradıcılıqlarında da geniş yer verməyə başlamışdılar.

Qeyd olunduğu kimi ilk portret-qəbirüsü abidələri Bakıda «Fəxri Xiyaban»da qurulmuşdu. O zamanki abidələr keyfiyyətsiz, ucuz materiallardan hazırlanırdı. Elə bu səbəbdən onların çox hissəsi bizim dövrümüzə qədər gəlib çatmayıb. Qəbirüstü abidələrin tərtibatında klassisizm dövrünə xas olan memarlıq elementlərindən – obelisk, kilon və s. istifadə olunurdu. Stellalara da geniş yer verilirdi.

Sovet hakimiyyəti qurulduqdan sonra bu məkanda ateizm geniş vüsət alır. «Fəxri Xiyaban»da qəbirüstü abidələri tikən zaman qiblənin istiqaməti nəzərə alınmırdı.

Əksər hallarda üstünlük əhəng daşlarına verilirdi. Başdaşlarının çoxunun forması tağ şəklində olurdu. Qeyd etmək lazımdır ki, bu formadan indi də geniş istifadə olunur. Belə başdaşlarının forması eyni olsa da onu hazırlayan sənətkar çalışırdı ki, müasir dövrün tələbləri ilə ayaqlaşsın.

60-cı illərə qədər demək olar ki, memarlıqda baş verən yeniliklər qəbirüstü abidələrdə öz əksini tapmadı.

Memorial incəsənət müxtəlif və rəngarəngdir. İncəsənətin bu növü insanların estetik zövqünə, dini mənsubiyyətinə əsaslanır.

II Dünya müharibəsində həlak olmuş insanlara müxtəlif abidələr həsr olunur. Bu abidələr ya fərdi surətdə, ya da qardaşlıq qəbiristanlığında ucaldılırdı. Belə abidələrin kompozisiya həllində ənənəvi obilisk, pilon, stella, relyef və büstlərdən istifadə olunurdu.

Müharibədə həlak olmuş döyüşçülərin qəbirlərindən fərqli olaraq ayrı-ayrı insanların qəbirləri üstündə ucaldılmış abidələrdə qəhrəmanlıq ideyası deyil, əsasən portretin oxşarlığına diqqət yönəlir, kompozisiyaya üstünlük verilir. Artıq zaman keçdikcə aydın olurdu ki, hər hansı qəhrəmana, tarixi şəxsiyyətə ucaldılan abidə ilə onun qəbri üzərində ucaldılan heykəl arasında fərq olmalıdır. Ona həsr olunmuş büst – abidə həm qəbir üstündə, həm də meydanda ucala bilməz.

İllər ötdükcə qəhrəmanlara ucaldılan abidələrin kompozisiya proyektinə daha ciddi münasibət bəslənməsi müşahidə olunurdu. Artıq memorial kompleksdə ucaldılan büstlərlə meydanlarda ucaldılanlar arasında qütbləşmə başlayır. Əgər meydanlarda ucaldılan büst abidələrdə əsasən heykəlin ətraf mühitlə – memarlıq kompleksi ilə əlaqəsinə, onun monumentallığına, formaların bütövlüyünə üstünlük verilirsə, qəbirüstü büstlərdə isə əsas yeri obrazın oxşarlığı, fərdi xüsusiyyətləri tuturdu. Əgər monumental büstlərdə ümumiləşdirmə prinsipi əsas yer tuturdusa, qəbirüstü büstlərdə fərdi xüsusiyyətlər, lirika, qəmginlik ilk plana çəkilirdi.

*Natiq Əliyev,*
*heykəltəraş*